# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər ( Göytəpə neolit dövrü abidəsi – açıq səma altında arxeopark )**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Quliyev Fərhad Eldar oğlu**
Qrantın məbləği: **18 5000 manat**
Layihənin nömrəsi: **EİF-2011-1(3)-82/70/5-M-60**
Müqavilənin imzalanma tarixi: **21 dekabr 2011-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 yanvar 2012-ci il – 1 yanvar 2014-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | . Layihənin yerinə yetirilməsi planı və mərhələlərinə müvafiq olaraq mövzu üzrə Göytəpə qədim yaşayış yerində və ətraf ərazilərdə müxtəlif elmlərin fövqündə (geomorfologiya, arxeobotanika, arxeozoologiya) tədqiqatlar aparılmışdır. Tədqiqat işlərinin ilkin nəticələrini əks etdirən kitabça (2 dildə) çap edilmiş və internet Web saytı (2 dildə) hazırlanmışdır. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *80%* |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin |

istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

2013-cü ildə Göytəpə arxeoloji kompleksində və ətrafında aparılan geniş miqyaslı arxeoloji tədqiqatlar bir neçə mərhələdən ibarət olmuşdur.
Beynəlxalq müştərək layihənin əsas tədqiqat obyekti e.ə. VI miniliyə aid Cənubi Qafqaz regionunda ən böyük qədim yaşayış yerlərindən biri olan Göytəpə arxeoloji kompleksində aparılmış tədqiqatlar əvvəlki illərdə olduğu kimi **professor Y.Nişiyakinin** rəhbərlik etdiyi Yaponiyanın Tokiyo Universitetinin mütəxəssisləri ilə müştərək davam etdirilmişdir. Tədqiqatların əsas vəzifələrindən biri indiyədək bu regionda bilinən ən qədim, neolit dövrünə məxsus özəllikəri özündə cəmləşdirən yerli Şomutəpə mədəniyyətinin inkişaf mərhələlərini və mənşəyini xüsusi vurğulamaqla Cənubi Qafqazın neolit dövrünün proseslərinə aydınlıq gətirməkdir. Bu baxımdan Göytəpə qədim yaşayış yerinin zəngin mədəni təbəqələri neolit dövrünün mühüm inkişaf mərhələlərini özündə əks etdirmiş və mükəmməl şəkildə tədqiqatların bütün tələblərinə cavab vermişdir. Göytəpəni əhatə edən ərazi yerli Şomutəpə erkən əkinçilik mədəniyyətinin davamı olmaqla neolit dövrünə məxsus xüsusiyyətlərin inkişaf etdirildiyi mədəni və ekoloji çərçivəni tədqiq etmək üçün bütöv potensialını qoruyub saxlamaqdadır. Bu potensial tədqiqatların kəşfiyyat xarakterli arşdırmaları nəticəsində qeydə aldığı mühüm neolit dövrü abidələr qrupu ilə müşayət olunmuşdur.
Bu il qazıntı mövsümündə ilk olaraq Göytəpənin 2B (hər biri 100 kvadrat metr olmaq şərtilə) və 3B kvadratlarında qazıntı işləri davam etdirildi. Əvvəlki illərdə bu kvadratlarda qazıntılar zamanı qədim yaşayış yerinin üst təbəqəsinə aid olan biri-birinə bağlı olan dairəvi planlı mükəmməl bina tikililəri aşkar edilmişdir. Bu mövsümdə 2B və 3B kvadratlarının daha dərin mədəni qat yatımlarının qazıntısı yeni bina tikililərini üzə çıxartdı. Biri-birindən aralı məsafədə olan dairəvi tikililəri birləşdirən arakəsmə divarlarla bağlı olan yaşayış evləri nəticədə ayrı-ayrılıqda yaşayış kvartallarını özündə əks etdirirdi. Hər iki kvadratda qazıntılar zamanı biri-birinə yaxın məsafədə olan iki kvartal torpaqdan təmizlənərək üzə çıxarıldı. Ümumilkdə 14 bina tikilisini özündə birləşdirən hər iki kvadratların kvartalları qədim yaşayış yerinin memarlığı kompleksinin tərkib hissəsi idi. Diqqəti cəlb edən məqamlardan biri o idi ki, Göytəpənin beş (5) və altıncı (6) tikili horizontlarına aid olan torpaqdan təmizlənmiş tikililəri üst təbəqədə qeydə alınmış tikili horizontlarından öz ölçülərinə görə fərqlənirdilər. Aşkar edilmiş hər iki kvadratın dairəvi bina tikililərin bəziləri diametrinə görə üç (3) və dörd (4) metrdir. Qazıntılardan məlum olur ki, dördüncü (4), beşinci (5) və altıncı (6) horizontlar qədim yaşayış yerində iri ölçülü binalar ilə təmsil olunmuşlar. Bundan əlavə hal-hazırda aşkar edilmiş bina tikililərinin yüz səkzən santimetr (1,80) hündürlükdə olması faktı tikililərin öz dövründə iki (2) metrdən artıq ölçüdə olduğuna işarə edir. Beləliklə də, Göytəpə qədim yaşayış yerinin möhtəşəm olan dairəvi planlı tikili memarlığı, e.ə. VI minillikdə Azərbaycanda və ümumən Cənubi Qafqazda yerli erkən-əkinçi tayfaların tikinti mədəniyyəti haqqında geniş təsəvvür yaradır.
1. Abidənin 4BII kvadratında qazıntılar zamanı qədim yaşayış yerinin son həddi (materik) aşkar olunmuşdur. E.ə təxminən 5750 və 5300 (50-yə yaxın radiokarbon C14 və C12 analizlərinin aparılması əsasında) illər ilə dövrləşən və memarlıq baxımından bir neçə tikili horizontunu nümayiş etdirən mədəni təbəqələr, Azərbaycan ərazisində bu günə qədər neolit dövrünün tikili horizontları arasında müəyyən edilmiş ən mükəmməli kimi hesab etmək olar.
Azərbaycan və Yaponiya arxeolqlarının müştərək tədqiqatları neolit dövrünün elmi baxımdan maraq kəsb edən digər neolit dövrü abidəsində **Hacı Ələmxanlıtəpə** qədim yaşayış yerində davam etdirilmişdir. Hacı Ələmxanlı qədim yaşayış yeri Göytəpə qədim yaşayış yerindən 1 km qərbə tərəf yerləşir. Aparılan qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələri Hacı Ələmxanlıtəpə qədim yaşayış yerinin Göytəpə neolit dövrü yaşayış yerindən fərqli xüsusiyyətlərə malik olduğunu göstərdi. Burada çox nadir halda keramika nümunəsinə rast gəlinmişdir. Bu və ya digər xüsusiyyətlər xronoloji cəhətdən bu abidənin Göytəpədən daha qədim olduğunu nümayiş etdirir.

Qazıntılardan məlum olmuşdur ki, burada mövcud olmuş yaşayış əsasən iki mərhələdən ibarət idi. Belə ki, III və II-ci təbəqələrin dairəvi planlı memarlıq tikililəri arasındakı qırılma buna sübutdur. 2013-cü ildə aparılmış abidədən götürülmüş kömür qalıqlarının radiokarbon analizlərinin nəticələrinə müvafiq olaraq, iki yaşayış mərhələsi arasındakı fasilə təqribən 100 il hesablanır.

Bu il (2013) qazıntı sahəsinin genişlənməsi 2012-ci ildə qismən üzə çıxarılmış memarlıq tikili qalıqlarının müəyyən edilməsinə şərait yaratmışdır. 8 formasını əmələ gətirən iki dairəvi tikilinin bir biri ilə birləşməsi bir memarlıq nümunəsini ortaya qoyur. Bu cür tikili nümunəsi hələ Göytəpə neolit dövrü yaşayış yerində aşkar edilməmişdir. Azərbaycanda bu günə qədər məlum olan neolit dövrünün erkən iki mərhələsi yuxarıda qeyd edilən hər iki qədim yaşayış yerində arxeoloji tədqiqatlar əsasında öz təsdiqini tapmışdır. Göytəpə geniş miqyaslı qədim yaşayış sahəsidir və vaxtilə burada yaşayan neolit sakinləri yüksək inkişaf mərhələsinə sahib olmuşlar, lakin Hacı Ələmxanlıtəpə kiçik miqyaslı və daha qədim yaşayış sahəsi hesab edilir, həmçinin burada mövcud olmuş sosial və iqtisadi vəziyyət hələ ki, tərəfimizdən tədqiq edilərək öyrənilir. Hər iki qədim yaşayış yerinin tədqiqatları regionda neolit cəmiyyətinin inkişaf mərhələlərini öyrənməyə şərait yaradır. Yerli erkən əkinçilik (Şomutəpə) mədəniyyətinin yaranması və inkişafı neolit dövrü üçün çox vacib hadisə hesab olunur, ona görə də aparılan tədqiqatlar Cənub Qafqazda neolitləşmə proseslərini tədqiq edib öyrənməyə əhəmiyyətli dərəcədə yardımçı olmuşdur.

Bundan əlavə, Göytəpə arxeoloji kompleksinin bəzi materiallarının laborator analizlərinin (Yaponiyanın Tokiyo Universiteti) aparılması mümkün olmuşdur. Bunlar əsasən abidənin yaş dövrünün təyin olunması məqsədilə qazıntılar zamanı götürülmüş kömür qalıqlarıdır. Bundan əlavə, osteoloji qalıqlar, bitki nümunələri və dəvəgözü daşının kimyəvi laborator analizləri aparılmışdır.

Tədqiqatlardan əldə olunan yeniliklərin tədqiqat obyektinin nəticələrinə həsr olunmuş monaqrafiyanın nəşr olunması zamanı açıqlanması nəzərdə tutulmuşdur.

2012-2013-cü illərdə aparılmış tədqiqatlardan əldə olunmuş nəticələrin bir sıra elmi yeniliklərdən ibarət olduğunu nəzərə alaraq, layihənin mövzusu ilə bağlı yeni konseptual məsələlər meydana gəlmişdir. Göytəpə arxeoloji kompleksinin ətrafında Arxeoloji Parkın yaradılması ilə bağlı layihənin yerli və xarici mütəxəssislərin cəlb olunması ilə hazırlanması 2014-cü ildə həyata keçməsi planlaşdırılmışdır.

Bundan başqa, Tovuz rayonunda tədqiqatlar nəticəsində Yanıqpəyə və Əlimərdanlı kəndləri arasındakı çöllüklərdə say etibarı ilə iyirmidən çox kurqan qəbirlər aşkar edildi. Kurqanlar qrupunun yaxınlığında yerləşən qədim topdağdağan ocağının adı ilə bu nekropol elmi dövriyyəyə "Topdağdağan kurqan qrupu" kimi daxil edilmişdir.

Ekspedisiya tərəfindən yeni texnologiya ilə ölçmələr, CPS-naviqatorla abidənin yeri və kurqanların dəqiq coğrafi lokallaşdırılması aparılmış və ilkin tədqiqat üçün şərti olaraq 9 və 12 saylı kurqanlar qazılaraq öyrənilmişdir.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

Layihənin yerinə yetirilməsi üzrə planı və mərhələlərinə müvafiq olaraq 2012-ci ilin mart ayında "Sivilizasiyanın başlanğıc nöqtəsi – Göytəpə neolit dövrü abidəsi" adlı kitabça nəşr olunmuşdur (azərbaycan və ingilis dillərində, 32 səh. – CBS mətbəəsində çap olunub).

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər<br>*(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)<br>May ayından sentyabr ayınadək layihə iştirakçıları Göytəpə qədim yaşayış yerində çöl tədqiqatlarının aparılması məqsədilə Tovuz rayonuna ezam olunmuşlar. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)<br>Tovuz rayonunda arxeoloji ekspedisiya (may-sentyabr). |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak<br>Layihə üzrə Tokiyo Universitetinin dr. Professoru Yoşhihiro Nişiyakinin rəhbərlik etdiyi Yaponiyanın Tokiyo Universitetinin mütəxəssislərindən ibarət qrupu ilə müştərək tədqiqatlar aparılmışdır. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq)<br>*(burada doldurmalı)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları<br>*(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr<br>*(burada doldurmalı)* |
| 12 | Xarici həmkarlarla əlaqələr<br>*(burada doldurmalı)* |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa)<br>*(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa)<br>*(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa)<br>*(burada doldurmalı)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)<br>*(burada doldurmalı)* |

www.archaeopark.az İnternet Web saytı (2 dildə) hazırlanmışdır.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

__________________
*(imza)*
" __ " ________ 201_-ci il

Dadəmirova K: /signature/.

**Müşavir**
Babayeva Ədilə Əli qızı

__________________
*(imza)*
" __ " ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Quliyev Fərhad Eldar oğlu

__________________
*(imza)*
"24" ________ 2014-ci il

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

## ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər ( Göytəpə neolit dövrü abidəsi – açıq səma altında arxeopark )**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Quliyev Fərhad Eldar oğlu**

Qrantın məbləği: **18 5000 manat**

Layihənin nömrəsi: **EİF-2011-1(3)-82/70/5-M-60**

Müqavilənin imzalanma tarixi: **21 dekabr 2011-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 yanvar 2012-ci il – 1 yanvar 2014-cü il**

## 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Azərbaycan və Yaponiya tədqiqatçılarından təşkil olunmuş (müvəqqəti yaradıcı kollektiv) beynəlxalq müştərək layihə arxeologiya elmi istiqamətində yeni ideyaların maddi təzahür formasını əks etdirir. Belə ki, kökündə elmi-tədqiqat işi dayanan layihə Azərbaycanın və ümumən Cənubi Qafqazın 8 min il bundan əvvəlki dövrə aid olan ən qədim və möhtəşəm yaşayış yerindən biri sayılan Göytəpə neolit dövrü abidəsinin müxtəlif elmlərin fövqündə əsaslı surətdə öyrənilməsi məqsədini daşıyır. Hündürlüyü 9 metr diametri 145 metr olan qədim yaşayış yerində geniş miqyaslı arxeoloji qazıntıların aparılması ilə yanaşı burada, aşkar olunmuş tikili horizontlarının stratiqrafik təhlilləri (tikinti mədəniyyəti), bitki və osteoloji qalıqların analizləri, neolit sakinlərinin qidası, istifadə olunan artefaktların (daş alətlər, sümükişləmə) |

hazırlanma texnologiyası, xüsusiyyətləri və tipologiyası, yerli və gətirilmə mənbələri, qədim dövrün iqlim şəraitinin ümumi yaşayış tərzinə təsirləri, sakinlərin say tərkibi və əsas məşğuliyyəti kimi məsələlər araşdırılmışdır.

Nəticədə, Göytəpə qədim yaşayış yerinin araşdırmaları fonunda Azərbaycanın neolit sakinlərinin mədəniyyətinin inkişaf mərhələləri və mənşəyi haqqında yeni maraqlı məlumatlar əldə edilmiş, dövrün yaşam tərzinin virtual bərpası üçün mükəmməl məlumat bazası yaranmışdır. Bunun əsasında beynəlxalq müştərək layihənin qarşısında duran ikinci mühüm vəzifənin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Alınmış nəticələrin təcrübi həyata keçirilməsi, arxeoloji kompleksin ətrafında qazıntılar zamanı aşkar olunmuş bina tikililərinin modellərinin (yerli erkən əkinçi tayfalara aid neolit dövrünün memarlıq üslubuna uyğun) abidənin ətrafında qurulması və içəri hissələrində erkən əkinçilər epoxasının yaşam tərzinin bərpası və erkən əkinçilərin qədim istehsal sahələrinə yiyələnməsi nəticəsində elmi-texnoloji biliklərin yaranmasını göstərən eksperimental arxeologiyanın tətbiqi ilə emalatxanaların təşkili (metalın əridilməsi, ox ucluqlarının və digər soyuq silahların hazırlanması, sümükişləmə və daşdan əkinçilik alətlərinin hazırlanması, keramikanın bişirilməsi, dövrün geyimlərinin tikilməsi və qida növlərinin hazırlanması və s.) ilə bağlı canlı muzey kompleksinin yaradılması üçün mükəmməl baza formalaşmışdır.

Bununla da, "İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər (Göytəpə neolit dövrü abidəsi – açıq səma altında arxeopark)" mövzusu, ölkəmizdə arxeologiya elmi istiqamətində tədqiqatlar nəticəsində əldə olunmuş nəticələri eksperimental arxeologiya vasitəsilə tətbiqinə yönəlmiş fundamental və tətbiqi xarakterli layihə olub elm ilə turizm sahəsinin vəhdətini təşkil edən ilk böyük işdir.

Qeyd etməliyik ki, bu cür layihələrin anologiyasına Türkiyə, İsrail və bir sıra Avropa ölkələrində rast gəlinir.

| | |
|---|---|
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |

Beynəlxalq müştərək layihənin əsas vəzifələrindən biri Azərbaycanın zəngin mədəni irsinin təbliğinə söykənmişdir. Bu baxımdan, "İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər (Göytəpə neolit dövrü abidəsi – açıq səma altında arxeopark)" adlı layihə beynəlxalq aləmdə ölkəmizin maddi-mədəniyyətinin təbliği baxımdan xüsusi önəm daşıyır.

2012-ci ilin aprel ayının 12-də, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev şimal-qərb bölgəsinə etdiyi növbəti səfəri zamanı, Tovuz rayonu ərazisində Göytəpə neolit dövrü abidəsinin ilkin nəticələri ilə tanış olmuş və abidənin əsaslı öyrənilməsi istiqamətində görülən işlərin daha geniş şəkildə aparılması məqsədilə AMEA yanında Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı 18 aprel tarixində Sərəncam imzalamışdır.

| | |
|---|---|
| | Qeyd edək ki, bu əlamətdar hadisə layihənin ən uğurlu nailliyyətidir. Belə ki, layihənin mövzusu ilə bağlı yaradılmış yeni struktur gələcəkdə qarşıya qoyulan məqsədə nail olmaq üçün geniş yollar açır. |

## 2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər (Göytəpə neolit dövrü abidəsi – açıq səma altında arxeopark)" adlı layihə fundamental, tətbiqi və axtarış-innovasiya yönlü olub beynəlxalq aləmdə arxeologiya istiqamətində zəngin tarixi keçmişimizin təbliğ edilməsini nəzərdə tutmuşdur. |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

__________________
*(imza)*
" __" _______ 201_-ci il

Daşdəmirzadə X: /[signature]/

**Müşavir**
Babayeva Ədilə Əli qızı

__________________
*(imza)*
" __" _______ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Quliyev Fərhad Eldar oğlu

__________________
*(imza)*
"24" Dekabr 2013-ci il